**AZƏRBAYCAN RESPUBLİKASININ**
**SƏHİYYƏ NAZİRLİYİ**

AZ1022 Bakı, Nəsimi rayonu, M.Mirqasımov küç., 1A www.health.gov.az
Tel.: (+994 12) 598 50 94 Faks: (+994 12) 493 06 95 Elektron ünvan: office@health.gov.az

10.06.2011 № 59

№-zə ____________

**“Poliklinikanın (poliklinika şöbəsinin) psixiatriya kabineti haqqında müvəqqəti əsasnamənin təsdiq edilməsi barədə”**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin “Bakı şəhərinin əhalisinə göstərilən ambulator psixiatriya yardımının təkmilləşdirilməsi barədə” 17.05.2011-ci il tarixli 54 nömrəli əmrinin icrası məqsədilə

## ƏMR EDİRƏM:

1. Poliklinikanın (poliklinika şöbəsinin) psixiatriya kabineti haqqında müvəqqəti Əsasnamə təsdiq edilsin (əlavə olunur).
2. Səhiyyə Nazirliyinin tabeliyində olan tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın ki, rəhbərlik etdikləri müəssisələrin strukturunda olan psixiatriya kabinetlərinin fəaliyyəti bu əmrlə təsdiq edilmiş əsasnaməyə uyğun təşkil edilsin.
3. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri Sultan Əliyevə həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
"10" iyun 2011-ci il tarixli
59 nömrəli əmri ilə təsdiq
edilmişdir

# Poliklinikanın (poliklinika şöbəsinin) psixiatriya kabineti haqqında müvəqqəti

# ƏSASNAMƏ

## I. Ümumi müddəalar

1. Poliklinikanın (poliklinika şöbəsinin) psixiatriya kabineti (bundan sonra kabinet) ambulator-poliklinika yardımı göstərən tibb müəssisəsinin (şöbəsinin) struktur bölməsidir.

2. Kabinet müalicə-diaqnostika məsələləri üzrə strukturuna daxil olduğu tibb müəssisəsinin, təşkilatı-metodik məsələləri üzrə müvafiq psixonevroloji tibb müəssisəsinin rəhbərliyi altında fəaliyyət göstərir.

3. Kabinetin həkimi vəzifəsinə həkim-psixiatr təyin olunur.

4. Kabinetin fəaliyyəti Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş normativ sənədlərə və bu Əsasnaməyə uyğun təşkil olunur.

5. Kabinetin iş rejimi daxili əmək-intizam qaydaları ilə müəyyən olunur.

## II. Kabinetin vəzifələri və işin məzmunu

6. Psixiatriya kabinetinin vəzifələrinə aşağıdakılar daxildir:

6.1. xidmət etdiyi ərazidə yaşayan əhaliyə ambulator-psixiatriya yardımının göstərilməsi;

6.2. psixi pozuntuları olan xəstələrin aşkarlanması, diaqnozun təyin edilməsi və müalicəsinin təşkili;

6.3. ixtisaslaşdırılmış tibb müəssisəsinin həkim-psixiatr komissiyasının və ya ərazi baş psixiatrın qərarı əsasında psixi pozuntuları olan xəstələrin dispanser qeydiyyatına götürülməsi və çıxarılması;

6.4. psixi pozuntuları olan xəstələrin dispanser müşahidəsinin aparılması;

6.5. dispanser qeydiyyatında olan xəstələrə tibbi-sosial reabilitasiya tədbirlərinin həyata keçirilməsi;

6.6. stasionar müalicəyə ehtiyacı olan xəstələrin ixtisaslaşdırılmış xəstəxanalara və şöbələrə göndərilməsi;

6.7. poliklinikanın struktur bölmələrinə ixtisaslaşdırılmış konsultativ yardımın göstərilməsi;

6.8. psixi pozuntuları olan şəxslərə müəyyən olunmuş qaydada dərman, o cümlədən psixotrop preparatların təyin edilməsi və reseptlərin yazılması;

6.9. dispanser qeydiyyatında olan xəstələrin evdə müayinə, müalicə və müşahidəsinin həyata keçirilməsi;

6.10. diaqnozun dəqiqləşdirilməsi, əmək qabiliyyətinin müvəqqəti və dayanıqlı itirilməsində yaranan mürəkkəb və münaqişəli məsələlərin həll edilməsi məqsədilə xəstələrin müvafiq üzrə ixtisaslaşdırılmış tibb müəssisəsinin Həkim Psixiatr Komissiyasına göndərilməsi;

6.11. psixi pozuntuları olan xəstələrə əmək qabiliyyətli olmamaq vərəqələrinin verilməsi;

6.12. əlillik əlamətləri olan xəstələrə əlillik dərəcəsinin müəyyən edilməsi və ya müalicə müddətinin artırılması məqsədilə Tibbi Sosial Ekspert Komissiyalarına göndərilməli xəstələrin HMK-na təqdim edilməsi;

6.13. nəqliyyat vasitələrini idarə etməyə yararlılıq məsələsi ilə əlaqədar rəy verilməsi;

6.14. akademik məzuniyyətin verilməsi, imtahanlardan azad edilmə və evdə təhsilin təşkili üçün təhsil müəssisələrinin sorğuları əsasında vətəndaşların psixi vəziyyətləri barədə rəylərin verilməsi;

6.15. məhkəmələrin, istintaq orqanlarının, səhiyyə idarələrinin və qanunla nəzərdə tutulmuş digər müəssisələrin sorğuları əsasında vətəndaşların psixi vəziyyətləri barədə məlumatların verilməsi;

6.16. peşəkar fəaliyyətə yararlılıqla əlaqədar təşkilatların və müəssisələrin sorğuları əsasında vətəndaşların psixi vəziyyətləri barədə rəylərin verilməsi;

6.17. məcburi ambulator müalicədə olan xəstələrin müalicəsi və müşahidəsi;

6.18. məcburi müalicənin müddətinin uzadılması, məcburi müalicə tədbirlərinin ləğv edilməsi və ya növünün dəyişdirilməsi ilə bağlı məsələlərin həlli məqsədilə xəstələrin ixtisaslaşdırılmış tibb müəssisəsinin Həkim Psixiatr Komissiyasına göndərilməsi;

6.19. psixiatriya kabinetinin fəaliyyəti ilə bağlı tibbi sənədlərin aparılması və statistik hesabatların hazırlanması.